Embassy of I. R. of Afghanistan

Baku, Azerbaijan

Office of the Ambassador

*No: 124/2021*
*Tarix: 03.05.2021*

**Şeyxülislam Hacı Allahşükür PAŞAZADƏyə**
**Qafqaz Müsəlmanları Ruhani İdarəsinin Sədri**

بسم الله الرحمن الرحيم

**Zati-aliləri,**
**Şeyx həzrətləri,**

Müqəddəs Ramazan ayı münasibətilə göndərdiyiniz təbrik məktubunuza və xoş arzularınıza görə sizə dərin minnətdarlığımı bildirirəm.

Fürsətdən istifadə edərək, məni və Səfirliyimizin əməkdaşlarını Qafqaz Müsəlmanları Ruhani idarəsində qəbul etdiyinizə görə təşəkkür edirəm.Sizinlə keçirdiyimiz görüşdə aldığımız yüksək səviyyəli təəssürat, zati-alinizin göstərdiyi böyük diqqət və lütfə görə öz adımdan və əməkdaşlarım adından minnətdaram.

Çox xoşbəxtəm ki, bu il Ramazan ayını Bakıda, azərbaycanlı bacı-qardaşlarımla birlikdə yaşayıram. Xüsusilə Azərbaycan üçün tarixi bir dövrdə Əfqanıstanı dost və qardaş ölkənizdə təmsil etmək böyük bir fəxrdir. Sizinlə görüşdə səsləndirdiyiniz fikirlər, bölüşdüyünüz ideyalar bizim növbəti addımlarımız üçün bir yol xəritəsi hesab oluna bilər.

İndi Əfqan xalqının həyatında da həlledici bir dövrdür. Uzun illərdən bəridir müharibələrdən, silahlı qarşıdurmadan və terrordan əziyyət çəkən Əfqanıstanın gələcəyi üçün həyati əhəmiyyətli addəmlar atılır. Məhz bu anda Əfqanıstanın öz dostlarının, qardaşlatrının, tərəfdaşlarının dəstəyinə ehtiyacı var. Çox təəssüf ki, bu gün islam adına böyük xələl gətirənlər bəşəriyyətə böyük bəlalar gətitir. Halbuki, islam sülhü, əmin-amanlığı təşviq edir, münaqişələrdən çəkinməyə çağırır. Müqəddəs anları yaşadığımız bu günlərdə Loqar və Fərah vilayətlərində, Kabil şəhərində törədilmiş qanlı aksiyalarda xeyli sayda mülki əfqan həlak olub. Ramazanın fəzilətindən uzaq olan belə hərəkətlərə yol verməklə terrorçular bir daha sübüt edirlər ki, onlar öz məkrli niyyətlərini həyata keçirmək üçün hər vasitədən istifadə edirlər. Nə yazıq ki, onlar islamın əsas qayəsindən uzaqdır və dinimizi mənfi məcraya yönəldirlər. Zati-alinizin İslam aləmində, müsəlman dünyasında olan nüfuzunu nəzərə alaraq Əfqan xalqının səsi olmağınızı rica edirəm. Əfqanıstanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda həlak olmuş mülki vətəndaşlarımızın, hərbçilərimizin ruhlarına, yaralanmış vətəndaşlarımız üçün dua etməyinizi xahiş edirəm.

İnanıram ki, bu müqəddəs bayram günlərində sizin dua və diləkləriniz Tanrı dərgahında qəbul ediləcək, Uca Yaradan öz mərhəmətini xalqımızdan əsirgəməyəcəkdir.

Ramazan bayramınız mübarək olsun!

**Qardaşınız,**

**Dr. Amanullah Jayhoon**

Address: Yasamal district AZ1073, Huseyn Javid avenue 520, H.20, Baku Azerbaijan
Email: baku.sr@mfa.af Website: www.afghanemb.az
Tel: +994 12 5059331/5059332

QAFQAZ MÜSƏLMANLARI İDARƏSİ